Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi



# AYLIQ BÜLLETEN
## FEVRAL – 2020

# İNKLÜZİV TƏHSİLDƏ UŞAQYÖNÜMLÜ PEDAQOGİKA

Uşaqyönümlü pedaqogika inklüziv təhsilin səmərəli tətbiqinin təməlidir. Bu yanaşma həm əlilliyi olan, həm də əlilliyi olmayan – bütün şagirdlərin ehtiyaclarından bəhs edən çərçivə sənədini müəllimlərə təqdim edir. Uşaqyönümlü pedaqoqika müəllimlərə şagirdlərin maraq və ehtiyaclarına uyğun təlim qurmaq imkanı yaradır.

İnklüziv təhsilin həyata keçirilməsində uşaqyönümlü pedaqoqikanın rolu böyükdür. Müxtəlif psixoloji və pedaqoji ədəbiyyatlarda da qeyd olunduğu kimi, eyni əlilliyə malik olan uşaqlar heç də eyni ehtiyaclara malik deyillər. Bundan başqa əlilliyi olan uşaqlar üçün nəzərdə tutulan təlim strategiyalarının digərlərindən kəskin fərqləndiyinə dair əsaslı dəlil də yoxdur. Bu səbəbdən müəllimlər üçün əsas məqsəd bütün uşaqların ümumi və xüsusi ehtiyaclarına cavab vermək, yəni uşaqyönümlü olmaqdır. Əlilliyi olan uşaqların təlimi üçün xüsusi pedaqoqika olmadığından müəllimlər inklüziv mühitdə bütün uşaqların ehtiyaclarını qarşılamaq məqsədilə uşaqyönümlü pedaqoqikadan istifadə edirlər.

Ənənəvi mühitdə, yəni müəllimyönümlü pedaqogikada müəllim bütün sinifin qarşısında durur, masaları sıra və cərgə ilə düzür, şagirdlərə bilikləri verir, və onların cavablarının doğru və ya yanlış olma-

Bületten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir






sını söyləyir. Ənənəvi təlim yanaşması məhdud imkanları, mühafizəkar və qeyri-çevik təlim texnologiyaları ilə xarakterizə olunur. Belə ki, ənənəvi təlim uşaqların fərdi xüsusiyyətləri və tələbatlarını nəzərə almayan pedaqoji fəlsəfəyə əsaslanır və təlimin aparıcı siması kimi bilik daşıyıcısı olan müəllimi görür. Bundan başqa, ənənəvi təlimdə nəzəri məzmun üstün tutulur ki, bu da metodların monotonluğu, qeyri-dinamik təlim mühiti və şagirdlərin passivliyinə səbəb olur.

Ancaq uşaqyönümlü pedaqoji yanaşmada təlimin səmərəsini artıran ən vacib amillərdən biri müəllimin davranışıdır. Belə ki, uşaqyönümlü yanaşmada müəllim sinifdəki resurslardan maksimum səmərəli istifadə edir, şagirdlərlə qarşılıqlı ünsiyyət qurur və onların öyrəndikləri bilikləri müxtəlif üsullarla qiymətləndirir.

Uşaqyönümlü pedaqogikanın əsas xüsusiyyətlərinə isə bunlar daxildir:

1. Faydalı təlim imkanları
2. Uşaqların müxtəlif yollarla öyrənməsi
3. Birgə öyrənmə
4. Cəlbedici və əlçatan təlim məkanları
5. Formativ qiymətləndirmə

"Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqoqika varmı?" suallna iki əsas mövqedən cavab vermək olar: "unikal fərqlilik" mövqeyi və "ümumi fərqlilik" mövqeyindən.

## Unikal fərqlilik mövqeyi

Hər bir şagirdin özünəxas ehtiyacları olmaqla yanaşı digər insanlarla oxşarlıq təşkil edən ehtiyacları da olur. Bunu nəzərə alaraq, əlilliyi olan uşaqlar üçün xüsusi pedaqogikanın olmasını deyil, bütün uşaqların tələblərini qarşılayan uşaqyönümlü pedaqogikanın olması ideyasını əsas götürmək lazımdır.

## Ümumi fərqlilik mövqeyi

Şagirdin ümumi və özünəməxsus ehtiyacları olmaqla yanaşı, əlillikdən irəli gələn müəyyən spesifik ehtiyacları da ola bilər. Eyni əlilliyi olan uşaqlar heç də eyni ehtiyaclara malik olmur, onlar bir çox baxımdan bir-birindən fərqlənirlər. Məsələn, müəyyən əlilliyi olan bir uşağın eyni əlilliyi olan başqa bir uşaqla deyil, əlilliyi olmayan bir uşaqla daha çox ortaq maraqları və ehtiyacları ola bilər

Bületten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə
Avropa İttifaqı
tərəfindən
maliyyələşdirilir



# UŞAQYÖNÜMLÜ TƏLİM MÜHİTİ

Uşaqyönümlü təlim məkanlarının xüsusiyyətlərini bildikdə daha uğurlu təlim prosesi qurmaq olar. Belə ki, uşaqların sinif və məktəb daxilində sərbəst hərəkət edə bilmələri, fərdi və qrup şəklində işləmələri, ehtiyac olduqda təlim materiallarını maneəsiz əldə edə bilməsi üçün hər cür şərait yaradılmalıdır. Bununla yanaşı, şagirdlərin fərdi və ya qrup şəklində öz müstəqil öyrənmələri üçün siniflərdə müxtəlif guşələrin qurulması vacib tədbirlərdən biridir.




Lazımi təlim materialları yerləşdirilən bu guşələr öyrəndikləri biliklərini artırmaq və möhkəmləndirmək, yeni bilik və bacarıqları təcrübədən keçirmək, yeni anlayışlar kəşf etmək üçün şans verir. Şagirdlər özləri də bu guşələrin planlaşdırılmasında, təşkilində və idarə edilməsində iştirak edə bilərlər. Bundan başqa, inklüziv siniflərdə bütün uşaqların işlərinin nümayiş olunduğu və onların fəaliyyətləri haqqında rəylərin yer aldığı təqdimat lövhəsinin olması da məqsədəuyğundur. Bu təqdimat lövhəsini tez-tez dəyişmək və onu tədris vasitəsi kimi istifadə etmək lazımdır.



## FƏAL MÜƏLLİMLƏRLƏ GÖRÜŞ

Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində Bakı, Şəki, Quba, Ağcabədi, Şamaxı və Cəlilabad regionlarında ixtisasartırma təlimlərində iştirak edən, müəllimlik fəaliyyətində nümunəvi olan, inklüziv təhsilə pozitiv münasibət bəsləyən, təlimlərdə öz yaradıcı baxışı və fəallığı ilə seçilən müəllimlərlə İnklüziv Təhsil Mərkəzlərində görüşlərin keçirilməsinə start verilib. Müntəzəm olaraq bütün regionlarda təşkil olunacaq görüşlərin məqsədi müəllimlərin təlimlərdə əldə etdikləri bilik və bacarıqların təcrübədə necə tətbiq etmələri, qarşılaşdıqları spesifik çətinliklər və onların həlli yolları və s. məsələlər barədə fikir və təcrübə mübadiləsi üçün imkan yaratmaqdır. Bu cür görüşlər inklüziv təhsilin aktuallığını gündəmdə saxlamaq və onun dayanıqlılığını təmin etmək baxımından əhəmiyyətlidir. Layihə çərçivəsində müəllimlərin şəbəkələməsi üçün müxtəlif tədbirlər nəzərdə tutulmuşdur.

Bületen Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



# İNKLÜZİV TƏHSİL İLƏ BAĞLI PORTUQALİYAYA İŞGÜZAR SƏFƏR




Layihə çərçivəsində 20-23 yanvar tarixlərində Azərbaycan Dövlət Pedaqoji Universitetinin bir qrup müəllim heyətinin və layihə əməkdaşla-rının Portuqaliya Respublikasına təlim səfəri təşkil olunub. Portuqaliya Respublikasının Təhsil Nazirliyinin Baş Təhsil İdarəsinin təşkilati dəstəyi ilə həyata keçirilən səfərin əsas məq-sədi müxtəlif dövlət qurumlarının nümayəndələri və təhsil müəs-sisələrinin mütəxəssisləri, valideynlər ilə müzakirələr aparmaq, inklüziv təhsilin tətbiqində Portuqaliyanın qabaqcıl təcrübəsini öyrənmək, müvafiq sahədə tədris və metodiki resurslar, qanun-vericilik tələbləri və dövlətin təşviqat tədbirləri barədə ətraflı məlumat əldə etmək olub.

Səfər çərçivəsində nümayəndə heyəti Portuqaliya Respublikasının Təhsil Nazirliyinin Baş Təhsil İdarəsinin nüma-yəndəsi ilə, Lissabon şəhərində fəaliyyət göstərən Alapraia, Pedro Eanes Lobato, António Arroio və Manuel Ferreira Patrício məktəblərində və Evora Universitetində rəsmi şəxslər, məktəb rəhbərləri, müəllimlər, valideynlər, tələbələr və digər əlaqəli şəxslərlə görüşlər keçirmiş, təlim-tədris otaqlarında yaradılan şəraitlə əyani tanış olmuş, təqdimatlarda iştirak etmişlər.

Təlim səfəri məktəblərdə kadr hazırlığının təkmilləşdirilməsi və inklüziv təhsil mədəniyyətinin gələcək nəsil müəllimlərə təbliğ olunması baxımından faydalı olub. Təhsil müəssisələrində aparı-lan müşahidələr göstərib ki, keyfiyyətli inklüziv təhsili şərtləndi-rən əsas amilləri bü cür ümumiləşdirmək olar: güclü əməkdaşlıq mühiti, fərqliliyə fərqliliyə hörmət, dözümlülük və inklüziv təhsilin əhəmiyyəti nə universal inam, ətraf mühitdə mövcud olan resurslardan öyrədici vasitə kimi istifadə etmək səriştəsi, təlim yanaşma-larının müxtəlifliyi.

*İnklüziv təhsil Portuqaliyanın təhsil məkanına və təcrübəsinə hərtərəfli inteqrasiya edilmişdir. Bu nailiyyətin əsas səbəblərindən biri inklüziv təhsilin qanunvericilikdə əsaslı şəkildə öz əksini tapması və cəmiyyətin bu mövzuda maarifləndirilməsidir. Bugünkü inkişaf səviyyəsinə çatmaq üçün ölkə ötən əsin 60-cı illərindən etibarən uzun bir yol qət etməli olub. 1980-ci illərdə ciddi dönüş nöqtəsi hesab edilən fundamental qanunlar qəbul edilib və Təhsil Nazirliyi xüsusi təhsilin inkişafına cavabdeh olan qurum kimi tanınmağa başlayır. 90-cı illərdə qəbul edilmiş əlilliyi olan uşaqların ümumtəhsil məktəblərinə inteqrasiyasını nəzərdə tutan qanunlar 2000-ci illərdə daha da təkmilləşdirilərək inklüziv təhsil prosesini sürətləndirən bazaya çevrilir. Əlbəttə dəyişən ehtiyacları nəzərə alaraq ölkə bununla kifayətlənmir. Belə ki, 2016-cı ildə inklüziv təhsil haqqında yeni qanunun hazırlanması üçün işçi qrupu yaradılır və 2018-ci ildə inklüziv təhsil ilə əlaqədar yeni qanun qəbul edilir. Yeni qanunda inklüziv təhsildə maraqlı tərəflər arasında daha sıx əməkdaşlıq və tərəfdaşlıq əlaqələri, inklüziv təlim prosesinin dəstəklənməsi üçün spesifik tədbirlər və resurslar, multi-dissiplinar komandanın fəaliyyəti, təlimə dəstək mərkəzinin xidmətləri, qiymətləndirmə və monitorinq kimi birbaşa təlim prosesinə aidiyyəti olan məsələlərlə yanaşı, inklüziv təhsil siyasətini tənzimləyən müddəalar da öz əksini tapmışdır.*

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

# NÜMUNƏVİ TƏCRÜBƏ




## Maqsudova Nurlana

(Şamaxı Avropa liseyinin ibtidai sinif müəllimi)

2018-ci tədris ilində qəbul etdiyim sinif mənim artıq 5-ci sinfim idi. Pedoqoji fəaliyyətimin 22-ci ili idi. Bu illər ərzində müxtəlif xüsusiyyətlərə, xarakterə malik şagirdlərlə rastlaşmışdım. Lakin bu yeni sinfə qəbul etdiyim şagirdlər arasında pedoqoji təcrübəmdə heç vaxt rast gəlmədiyim bir şagird – Həsənov Nadir (soyad və ad şərti seçilmişdir) diqqətimi çəkdi. Nadir verilən heç bir suala cavab vermir, yoldaşları ilə ünsiyyət qurmur, adını belə söyləməkdən çəkinirdi. Mən belə qənaətə gəldim ki, o, ətrafdakılarla göz təması qurmaq istəmir. Nadirdə müşahidə etdiyim qeyri-adi hərəkətlər məni çox təəccübləndirdi, eyni zamanda narahat etməyə başladı. Çoxillik təcrübəmə baxmayaraq məni artıq bir çox suallar düşündürməyə başladı:

- Mən bu şagirdi ünsiyyətə alışdırmaq üçün hansı metodlardan istifadə etməliyəm?
- Qavrama və öyrənmədə çətinliyi olan şagirdə keçilən materialı hansı bacarıqdan istifadə edərək mənimsədə bilərəm?
- Bu şagirdin dərs prossesinə adaptasiya olunması üçün hansı üsullardan istifadə etməliyəm?

Mənim ilk işim valideynlə əlaqə yaradıb Nadirin fərdi xüsusiyyətləri haqqında geniş məlumat almaq oldu. Lakin valideynin fikirlərini dinləyərək belə qənaətə gəldim ki, valideyn övladının digər şagirdlərdən heç də fərqlənmədiyini düşünür. Bu söhbətdən sonra yəqin etdim ki, mən hələ ki, bu çətin eləcə də məsuliyyətli yolda tək addımlayacağam.

1-ci sinifdə ilk aylarda verilən ən sadə tapşırıqların (şəkil üzrə danışmaq, şəkil rəngləmək, düz xətt çəkmək və s.) üzərində heç bir fəaliyyət göstərməyən Nadir passiv şəkildə dərsləri dinləməklə kifayətlənirdi. Çox sakit təbiətə malik olan bir şagird getdikcə yoldaşlarına qarşı aqressiya nümayiş etdirməyə başladı. Artıq zaman keçdikcə, şagirdlərim ilkin biliklərə tam, sərbəst şəkildə yiyələndikcə Nadirin bu passiv vəziyyəti məni çox narahat etməyə başladı və mən qərara gəldim ki, hər gün dərsdən sonra onunla fərdi məşğələlər keçirim. İlk günlər bu məşğələlərin də heç bir nəticə verməyəcəyini düşündüm, lakin günlər keçdikcə, çox böyük əmək sərf edəndən sonra mən artıq Nadirdə bir irəliləyişin olduğunu hiss etdim. Müşahidələrim zamanı onun vizual üsulla öyrənməyə meylli olduğunu hiss etdim. Odur ki, çalışıb bütün dərslərimi təqdimatlar vasitəsilə qurdum. İnklüziv dərs strategiyalarında da deyildiyi kimi, təkrarlara böyük yer verirdim. Söhbət təlimat və ya fikrin təkrarından gedir. Mən tapşırıq verərkən Nadiri diqqətimdə saxlayaraq bütün sinfə əlavə vaxt verirdim. Xüsusilə riyaziyyat dərslərində tapşırıqlarda işarələrdən istifadə etmək müsbət effekt verirdi. Belə ki, məsələn, təklik və onluq anlayışlarında dairədə təklikləri, kvadrat daxilində onluqları göstərmək onun üçün daha səmərəli üsul idi.